# Yorulmaz tədqiqatçı alim



**Mən onu həyatda tanımırdım, lakin haqqında çox eşitmişdim. Uzun illər Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun elmi katibi işləmiş, tarix elmləri üzrə fəlsəfə doktoru Gövhər Məmmədova.**

Gövhər xanım haqqında yazılmış yazıları, müxtəlif vaxtlarda çap etdirdiyi kitabları vərəqləyərkən bir yazının sehrinə düşdüm. 2007-ci ilin baharında ona könüldən-candan bağlı olan dostları yazmışdılar: "Nə tez keçdi illər! Elə bil dünən idi bu! Gözəl, göyçək, ağıllı və bir qədər ürkək baxışlı, mələklər kimi pak Gövhərin gənc tarixçi adıyla nüfuzlu elm ocağına ilk gəlişindən nə tez keçdi 38 il. Amma nə olsun ki, illər heç dəyişmədi səni. Elə bil ki, heç bu illər sənin ömründən keçmədi, sən illərin üstündən adlayıb 2007-nin baharına düşdün. Gözəlliyini də saxladın, adını da, paklığını da qorudun. İncidir, daş-qaşdır adının mənası, var-dövlətin isə elə adın oldu. Hər şeydən uca tutdun sən onu. Ətrafındakılar, həmkarların və dostların da bir inci saflığı gördülər səndə, sevdilər və hörmətini saxladılar...".

Dost, yoldaş, həmkar sevgisinin etirafı üçün bundan gözəl sözlər tapmaq bəlkə mümkündür, bəlkə də yox. Bəs, ona olan bu sevginin mayasında nə durur, görəsən? Ətrafındakıların, həmkarlarının onu bu qədər "inciləşdirmələrinin", "saflaşdırmaqlarının" səbəbi nədir?

Bax, bu suallara cavab tapmaq üçün onu bir az yaxından tanımaq lazımdır.

Gövhər Nağı qızı Məmmədova 1947-ci il martın 5-də dünyaya göz açmış, 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə daxil olmuş və 1969-cu ildə oranı bitirmişdir. Həmin ildən AMEA-nın Tarix İnstitutunda işləyir. Bütün həyatını elmə həsr edən Gövhər xanım 1980-ci ildə "Rus konsulları Azərbaycan haqqında (XVIII əsrin 20-60-cı illəri)" mövzusunda dissertasiya müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Adından da göründüyü kimi, alimin əsas tədqiqat obyekti XVIII-XIX əsrin əvvəllərində Rusiyanın Qafqaz siyasəti və Azərbaycan tarixi problemidir. Qeyd edək ki, tədqiqatçının müraciət etdiyi mövzu aktuallığı ilə daha çox diqqəti cəlb edir. Müəllif mövzu üzərində işləyərkən böyük əmək sərf etmiş, arxiv materialları əsasında maraqlı faktları aşkara çıxarmış, dəyərli bir əsər araya-ərsəyə gətirə bilmişdir. Təkcə bu istiqamətdə alimin 30-a yaxın elmi əsəri çap olunmuşdur ki, onlardan 4-ü xarici ölkələrin elmi jurnallarında işıq üzü görüb.

Rusiya Federasiyasının dövlət arxivlərində saxlanılan çoxsaylı sənədlər üzərində apardığı tədqiqat nəticəsində Azərbaycan tarix elminə bir sıra yeniliklər gətirən Gövhər Məmmədova elmi-tədqiqat sahəsində fəaliyyətini davam etdirərək "XVIII-XIX əsrin əvvəllərində Şirvanın siyasət tarixi" mövzusunda tarix üzrə elmlər doktoru dissertasiyası işini başa çatdırmışdır.

O, gənc elmi kadrların hazırlığı işinə də töhfələr verən alimlərimizdəndir. Onun elmi rəhbərliyi ilə 2 nəfər tarix üzrə fəlsəfə doktoru adına layiq görülüb. O, xarici ölkələrdə keçirilən elmi konfranslarda da Azərbaycan elmini layiqincə təmsil edir. Tallin, Daşkənd, Karaçi, Bakı və s. şəhərlərdə keçirilən beynəlxalq elmi konfranslarda iştirak edərkən etdiyi maraqlı məruzələrlə dünya alimlərinin diqqətini özünə çəkə bilmişdi.

Gövhər Məmmədova 2012-ci ilin mayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarının tarixinə dair silsilə əsərlərinə görə Dövlət mükafatına layiq görülmüşdür.

Gövhər xanım 1983-cü ildə Tarix İnstitutunun elmi katibi vəzifəsinə təyin edildi. Düşünəndə ki, o, 50 ilə yaxın eyni bir yerdə işləyib, 35 ilə yaxın eyni vəzifəni icra edib, ona qibtə etməyə bilmirsən.

Həmişə qələmi, sözü ilə aydınlığa doğru addımlayan, ictimai istəyi tuta bilən, daim aktiv fəaliyyətdə olan Gövhər xanımın qələmindən çıxan yazılar düşündürücüdür, aydındır, hər zaman üçün aktualdır.

Gövhər Məmmədova bir alim ömrü yaşayıb. Ömür tarixçəsinin zirvəsinə də onu bu illərdə qazandığı uğurlar gətirib, anlar, dəqiqələr, günlər üst-üstə gəldikcə illər gəlib keçib, ömür karvanı da öz yolundan qalmayıb, ömür su kimi axıb gedib. Bir də baxıb ki, saçına ağ rəng səpilib, yaşın müdriklik zirvəsindədir. Vaxt-vədə əlini arzuladığı bütün istəklərinə çatdırıb onu, gözünü-könlünü oxşayıb, ürəyinə təpər olub. Ömür yolu da heç vaxt hamar olmur, dolanbacları, çətin məqamları var. İndi onların hamısı arxada qalıb. Qazandıqlarını, itirdiklərini saf-çürük etmək, öz-özünə hesabat vermək vaxtıdır. İnanıram ki, dost, yoldaş, həmkarının onun haqqında söylədikləri isə Gövhər xanımın araşdırmaları sırasında daha dəyərlisi, daha qiymətlisi olacaqdır.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi İşlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru, professor Cəbi Bəhramovun həmkarı haqqında dediklərindən: "Mən Gövhər xanımı 1982-ci ildən tanıyıram. Müəllimim saydığım bu gözəl insandan Tanrı heç nəyi əsirgəməyib, gözəl alim, gözəl təşkilatçı, gözəl ana və s. Xeyirxahlıq üçün doğulub. Bu institutda həmişə güvəndiyim, arxalandığım, çətinə düşəndə güvəndiyim bir insandır. Mən ondan çox şeylər öyrənmişəm. Onun yazdıqlarının hamısı gərəkli, əhəmiyyətlidir, lakin mən "1796-cı ildə B.Zubovun Azərbaycana hərbi yürüşü" kitabı haqqında bir neçə söz demək istərdim. Əsər üzərində işləyərkən o, dəfələrlə Rusiya Federasiyasına getmiş, arxivlərdə işləmiş, böyük əmək sərf etmişdi. Gözəl ailəsi var, həyat yoldaşı Mehman müəllim də tarixçi idi. Övladlarının ikisi, qızı Elnarə xanım və oğlu Mustafa, valideynlərinin yolunu davam etdirirlər, hər ikisi elm sahəsində uğurlu addımlar atıblar. Digər qızı Vüsalə xanım isə həkimdir, uzun müddət Səudiyyə Ərəbistanında həkim kimi çalışıb. O, bir alim kimi də, bir insan kimi də bizim üçün gərəklidir".

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin İctimai fənlər kafedrasının müdiri, tarix elmləri doktoru, professor Camal Mustafayevin müəllimi haqqında söylədikləri də təbii və səmimidir: "Mən bir müddət AMEA-nın Tarix İnstitutunun o zaman mövcud olan "Azərbaycanın xanlıqlar dövrü və Rusiya ilə əlaqələr şöbəsi"ndə onunla birgə çalışmışam. O zaman dissertasiya mövzuları rus dilində yazılırdı. Bax, bu işdə o, mənə yardımçı olub. Gövhər xanım bir elmi işçi kimi də dəyərli mütəxəssisdir. XVIII əsr Azərbaycan tarixinin yazılmasında, onun müəyyən problemlərinin araşdırılmasında böyük xidmətləri var. İnsanpərvərdir. Aramızda olmağından qürur duyur, baharda dünyaya gələn bu xanıma bahar təravətli günlər, aylar, illər arzulayıram".

Qəzetçilikdə maraqlı şeylər çox olur. Bəzən tanımadığın adam haqqında bir görüşdən sonra gözəl bir yazı hazırlayırsan. Bəzən də əksinə tanıdığın, gördüyün birisi haqqında yazdığın heç ürəyincə olmur. Hər ikisi normaldır, ola bilər. Yaxşı yazı üçün yaxşı qələm, mükəmməl tərcümeyi-hal hələ hər şey demək deyil, gərək həmsöhbətin ürəyinə yata, sənə ilham verə. Gövhər xanımla elə ilk görüşdəcə istədiyimi ondan ala bildim. Hiss etdim ki, o, dəyişməz bir insandır, heç vəzifə kürsüsü də onu dəyişdirə bilməyib, elmi katib kimi işlədiyi vaxtlarda kiməsə bacı, kiməsə həmkar, kiməsə ana, kiməsə müəllim olub, xeyirxahlığından hamı fayda görüb. Mərdliyini, cəsarətini də göstərib bədxahlara. Elm pərdəsinə bürünüb tariximizi təhrif edənlərə qarşı amansız olub, dövlətçiliyimizin, torpaq bütövlüyümüzün keşiyində durub, işlədiyi yerin şərəfini uca tutub, xanım-xatınlığın Gövhəri olub... Bax, bütün bunlara görə də həmişə sevilib və sevilir.

**Nurəngiz ADİLQIZI,**
**"Respublika".**